# POLKOVNİK NUDİRƏLİYEV ZAUR İSMAYIL OĞLU



Polkovnik Nudirəliyev Zaur İsmayıl oğlu 1 sentyabr 1978-ci ildə Bakı şəhərində anadan olmuşdur. 01.09.1995-ci ildə Bakı şəhəri, SHXÇDX-nin Xətai rayonu tərəfindən hərbi xidmətə çağırılıb. 1992-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olunmuş və 1995-ci ildə həmin liseyi bitirmişdir. 1995-ci ildə Türkiyə Respublikası Ali Hərbi Təyyarəçilik Məktəbinə qəbul olunmuş və 1999-cu ildə Hərbi Məktəbi bitirmişdir.

Azərbaycan Ordusunun zabiti kimi hərbi hissənin Aviasiya eskadrilyası aviasiya manqasının təyyarəçisi, Aviasiya eskadrilyası aviasiya manqasının baş təyyarəçisi, Aviasiya eskadrilyası aviasiya manqasının komandiri, Aviasiya eskadrilyası komandirinin müavini-Şturman, Aviasiya eskadrilyasının qərargah rəisi-eskadrilya komandirinin müavini, Aviasiya eskadrilyasının (Su-25) komandiri, hərbi hissə komandirinin uçuş hazırlığı üzrə müavini-uçuşların planlaşdırma bölməsinin rəisi və 03.04.2019-cu il tarixdən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Hərbi Hava Qüvvələri fakültəsinin Uçuş hazırlığı kafedrasının rəisi - Uçuş fənləri silsiləsinin rəisi vəzifələrində xidmət etmişdir. Azərbaycan Respublikası Müdafiə Nazirinin 31.07.2019-cu il tarixli müvafiq əmri ilə polkovnik hərbi rütbəsi verilmişdir.

Xidmət etdiyi müddət ərzində Müdafiə Nazirinin müvafiq əmrləri ilə xidmətdə fərqləndiyinə görə "Silahlı Qüvvələrin 10 illik" yubiley medalı, "Hərbi xidmətdə fərqləndiyinə görə 3-cü dərəcəli" medalı, "Silahlı Qüvvələrin 90 illik" yubiley medalı, "Qüsursuz xidmətə görə 3-cü dərəcəli" medalı, "Qüsursuz xidmətə görə 2-ci dərəcəli" medalı, "Silahlı Qüvvələrin 95 illik" yubiley medalı, "Qüsursuz xidmətə görə 1-ci dərəcəli" medalı, "Hərbi xidmətdə fərqləndiyinə görə 2-ci dərəcəli" medalı, "Azərbaycan Ordusunun 100 illik" yubiley medalı, "Azərbaycan Respublikasının Silahlı Qüvvələri Veteranı" medalı ilə təltif olunmuşdur. Vətən Müharibəsində göstərdiyi qəhrəmanlığa görə ölümündən sonra "Vətən müharibəsi qəhrəmanı" və "Fizulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

2020-ci ilin oktyabr ayında torpaqlarımızın erməni qəsbkarlarının işğalından azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Ailəli idi, 2 övladı var.